

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Dekabr 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “DÖVLƏT GÜZƏŞTLİ ŞƏRTLƏRLƏ GÜBRƏ, YANACAQ VƏ İSTEHSALATA BÖYÜK SUBSİDİYALAR AYIRIR Kİ, BİZ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İXRACI BAXIMINDAN MÜHÜM ÖLKƏYƏ ÇEVRİLƏK”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
“Rossiya-24” telekanalına verdiyi
müsahibədən



“On bir ayın yekunlarına görə biz qeyri-neft sənayesinin artımını 9 faizdən çox həcmdə görürük. Bu, ilk növbədə, bizim qeyri-neft sektoru, kiçik və orta sahibkarlıq, fermerlər üçün sərfəli şərait yaradılması üzrə sənayeləşdirmə proqramımızın nəticələridir. Bizim fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Dövlət güzəştli şərtlərlə gübrə, yanacaq və istehsalata böyük subsidiyalar ayırır ki, biz kənd təsərrüfatı məhsullarının ixracı baxımından mühüm ölkəyə çevrilək.

Buna görə də bizim iqtisadiyyatımızın gələcək inkişafı neft-qaz sektoru ilə dəstəklənəcək, lakin dayanıqlı inkişaf sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalarla bağlı olacaq.”

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

Azexport.az portalına 2018-ci ilin yanvar-noyabr aylarında 479 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən dekabr ayında 11 milyon ABŞ dolları dəyərində ixrac reallaşmışdır ____ səh. 21

“2019 İxraca dəstək” layihəsi təqdim olunmuşdur ____ səh. 24

“Xarici ticarət iştirakçılarının forumu: ""Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqi" adlı tədbir keçirilmişdir ____ səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-NOYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1** milyard **532** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **145** milyon ABŞ dolları və ya **10,5%** **ARTMIŞDIR**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycan Respublikasının ixracı 17,9 milyard ABŞ dolları təşkil etmişdir. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə **1 milyard 532 milyon** ABŞ dolları olmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **145 milyon** ABŞ dolları və ya **10,5 faiz** artmışdır. Cari ilin yanvar-noyabr ayları ərzində Rusiyaya **555,4 milyon**, Türkiyəyə **321,3 milyon**, İsveçrəyə **123,3 milyon**, Gürcüstana **117,1 milyon** və Qazaxıstana **41,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 11 ayı ərzində Rusiyaya qeyri-neft ixracı **12 faiz**, Türkiyəyə **22 faiz**, Qazaxıstana **42 faiz** artmış, İsveçrəyə **8 faiz**, Gürcüstana isə **3 faiz** azalmışdır.

2018-ci ilin yanvar-noyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (162,2 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 107,2 milyon ABŞ dolları) ikinci olmuşdur. Xurma isə (89,1 milyon ABŞ dolları) bu siyahıda üçüncü yerdə qərarlaşmışdır.

Cari ilin yanvar-noyabr aylarında qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi (daranmaya məruz qalmamış), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, elektrik enerjisi, emal olunmamış aşqarlanmamış alüminium, albalı və gilas da qeyri-neft ixracında mühüm paya sahib olmuşlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-noyabr ayları ərzində meyvə-tərəvəz ixracı **495 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **110,3 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **106,6 milyon**, elektrik enerjisinin ixracı **65 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **78,9 milyon**, pambıq lifi ixracı **70,9 milyon**, kimya sənayesi məhsullarının ixracı **73,3 milyon**, pambıq ipliyi ixracı **21,3 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 11 ayında pambıq lifinin ixracı **2,5 dəfə**, elektrik enerjisinin ixracı **58 faiz**, pambıq ipliyinin ixracı **44 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **25 faiz**, meyvə-tərəvəzin ixracı **9 faiz**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **7 faiz**, kimya sənayesi məhsulları **1 faiz** artmışdır.

2018-ci ilin noyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **181 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin noyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısına Rusiya (88,4 milyon ABŞ dolları) liderlik etmişdir. Daha sonra bu siyahıda Türkiyənin (27,5 milyon ABŞ dolları), Gürcüstanın (10,6 milyon ABŞ dolları), İsveçrənin (8,9 milyon ABŞ dolları), Ukraynanın (7,8 milyon ABŞ dolları) və digər ölkələrin adları vardır.

Cari ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (45,2 milyon ABŞ dolları) birinci, qabığı təmizlənmiş meşə fındığı (14,5 milyon ABŞ dolları) ikinci olmuşdur. Bu siyhaıda üçüncü yeri pomidor (12,3 milyon ABŞ dolları) tutmuşdur.

Həmçinin 2018-ci ilin noyabr ayında metanol (metil spirti), qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, pambıq lifi (daranmaya məruz qalmamış), daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, elektrik enerjisi qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2018-ci ilin yanvar-noyabr ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI DEKABR



## 2018-Cİ İLİN **NOYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## **(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**






## 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## **(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI DEKABR

| | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 162,2 | 140,2 |
| Qızıl | 107,2 | 116,4 |
| Xurma | 89,1 | 70 |
| Fındıq ləpəsi | 80,2 | 104,7 |
| Mahlıc | 70,1 | 27,5 |
| İlkin formalı polietilen | 68,6 | 66,4 |
| Elektrik enerjisi | 65 | 41,2 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 46,5 | 22,7 |
| Albalı və gilas | 38 | 23,2 |
| Digər | 804,8 | 774,4 |

# 2018-Cİ İLİN **NOYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI DEKABR

| Mal | 2018 | 2017 |
|---|---|---|
| Xurma | 45,2 | 39,7 |
| Fındıq ləpəsi | 14,5 | 16,1 |
| Tomat | 12,3 | 8,7 |
| Metanol | 8 | 3,8 |
| Qızıl | 7,2 | 17,9 |
| Alma | 7,2 | 5,6 |
| Mahlıc | 6,3 | 0,3 |
| Digər yağlar və məhsullar | 5,5 | 3,5 |
| Elektrik enerjisi | 5,3 | 4 |
| Digər | 69,1 | 68,4 |

# 2018-Cİ İLDƏ **YANVAR - NOYABR AYLARI** ÜZRƏ ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**



2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



## 2018-ci ilin **YANVAR-NOYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-noyabr aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci ilin yanvar-noyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Kapitan Fruits" MMC, "Azfruittrade" MMC, "Food Export Şəmkir" MMC, "Sun Food" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "TST Export" MMC.

Qeyd edək ki, 2018-ci ilin yanvar-oktyabr ayları üzrə tərtib edilən reytinqlə müqayisədə bu dəfəki siyahıda "TST Export" MMC təmsil olunmaq şansı qazanmışdır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ATSC, "SOCAR Methanol" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI DEKABR



# 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI DEKABR



# 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 24 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2018-ci ilin yanvar-noyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **24 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil etmişdir.

2018-ci ilin noyabr ayında isə "Azərkosmos" ASC dünyanın **15 ölkəsinə 1,6 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2018-ci ilin yanvar-noyabr aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)





2018-ci ilin **YANVAR-NOYABR AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **1 195** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri **252** milyon manat və ya **27%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana dünyanın 195 ölkəsindən 2 633,5 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 31,1 faizi Rusiya Federasiyası, 20,9 faizi Gürcüstan, 10,1 faizi Türkiyə, 8,6 faizi İran, 3,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,7 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi İraq, 2 faizi Ukrayna, 1,5 faizi İsrail, 17,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 7,1 faizi yanvar, 6,4 faizi fevral, 10,5 faizi mart, 8,3 faizi aprel, 7,9 faizi may, 10,2 faizi iyun, 12,5 faizi iyul, 12,2 faizi avqust, 8,8 faizi sentyabr, 8,0 faizi oktyabr, 8,1 faizi isə noyabr ayında ölkəyə gəlmişdir.

Ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə ölkəmizə gələn Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,1 dəfə, Küveyt vətəndaşlarının sayı 1,9 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 10,4 faiz, Oman vətəndaşlarının sayı 8,5 faiz artmışdır.

2018-ci ilin yanvar-noyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7,1 faiz artaraq 106,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,3 faiz artaraq 971,3 min nəfər olmuşdur.

2018-ci ildə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də dinamik artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1 195,5 milyon** manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **252 milyon** manat və ya **27 faiz** artmışdır.

Cari ilin noyabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **76,2 milyon** manat təşkil etmiş və ötən ilin noyabr ayı ilə müqayisədə **6 faiz** artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

| | 2016-cı il | 2017-ci il | 2018-ci il |
|---|---|---|---|
| Yanvar | 28,2 | 86,8 | 99,8 |
| Fevral | 36,7 | 72,5 | 91,1 |
| Mart | 40,6 | 91,1 | 105,8 |
| Aprel | 34,5 | 80,6 | 109,7 |
| May | 48,6 | 92,6 | 107,3 |
| İyun | 74,8 | 83,8 | 106,7 |
| İyul | 40,9 | 95,7 | 126,3 |
| Avqust | 52,5 | 100,8 | 141,0 |
| Sentyabr | 56,8 | 93,2 | 114,6 |
| Oktyabr | 52,5 | 74,4 | 117 |
| Noyabr | 62,3 | 72,1 | 76,2 |
| CƏMİ | 528, 4 | 943,6 | 1 195,5 |

3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA 479 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **NOYABR AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **46** milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin yanvar-noyabr aylarına Azexport.az portalına **479 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **8 faiz** artmışdır. Cari ilin noyabr ayı ərzində isə Azexport.az portalına daxil olan sifarişlərin dəyəri **46 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin 11 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (17,4%), ABŞ (8,5%), Türkiyə (5,5%), Ukrayna (4,4%) və Hindistan (4,4%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin noyabr ayında ən çox ixrac sifarişi xiyar, pomidor, soğan, yerkökü, fındıq, pambıq, pampıq yağı, bal, şərab, tütün, nar şirəsi, göbələk, nar, kartof, yun, çay, ipək xalça, konservləşdirilmiş tərəvəzlər, mühərrik yağı, kərə yağı, tikinti materialları, mebel dəsti, metal məhsullar, şokoladlı yağ, zəfəran, meyvə şirəsi, dondurulmuş toyuq, qənnadı məhsulları, buğda kəpəyi, xurma qurusu, konservləşdirilmiş ət, kələm, feyxoa cemi, tibbi tənzif, mineral su və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 30 noyabr tarixinə kimi (23 ay ərzində) Azexport.az portalına dünyanın 111 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **954 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

**2017-ci il ərzində**

**CƏMİ - 475 milyon**




**2018-ci il üzrə**

YANVAR - 81,5 milyon

FEVRAL - 37,6 milyon

MART - 66,5 milyon

APREL - 36,9 milyon

MAY - 27,7 milyon

İYUN - 34,2 milyon

İYUL - 31,1 milyon

AVQUST - 51,5 milyon

SENTYABR - 43 milyon

OKTYABR - 23 milyon

NOYABR - 46 milyon

**CƏMİ** - **479 milyon**



Son **23 ay** ərzindəki sifarişlərin cəmi - **954 milyon**

# 2018-Cİ İLİN **NOYABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



Pambıq



Tütün



Toyuq əti/file



Şərab



Soğan



Kartof



Qoyun yunu



Çay



Meyvə şirəsi



Pampıq yağı



Alma



Nar şirəsi



Feyxoa cemi



Mühərrik yağı



Qənnadı məhsulları



# 2018-Cİ İLİN **YANVAR-NOYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



4

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN DEKABR AYINDA 11 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ İXRAC REALLAŞMIŞDIR

2018-ci ilin dekabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən respublikamızda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə ( "Baku Steel Company" MMC, "AzerGold" MMC, "Food Export Şəmkir" MMC, Teymur Əhmədov adına "AZNAR" QSC, "Gilan Tekstil Park" MMC və s.) ixracla bağlı müvafiq sertifikatlar verilmişdir. Cari ilin dekabr ayında Azərbaycan sahibkarlarının “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri **11 milyon** ABŞ dolları təşkil etmişdir. Fiziki və hüquqi şəxslər tərəfindən əsasən polad boru, polad armatur,qiymətli metal külçələr, meyvə -tərəvəz, qoyun əti, arpa, meyvə şirələri, şirniyyat, pambıq tullantısı, bal, dondurulmuş toyuq ayaqları, yuyucu vasitələr, biyan, dəmir metal pilləkan, qapı, balkon, nar yağı və s. məhsullar ixrac edilmişdir. Bu məhsullar Rusiya, Gürcüstan, Türkiyə, Qazaxıstan, Polşa, İran, Almaniya, Ukrayna, Səudiyyə Ərəbistanı, Yaponiya, İsrail, ABŞ, İspaniya, Çin, Avstraliya və Qətər daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Qeyd edək ki, 2018-ci ilin yanvar-dekabr aylarında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **149,8 milyon** ABŞ dollarından çox olmuşdur.



# 2018-Cİ İLİN YANVAR - DEKABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)




2018-ci ilin yanvar - dekabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# 2018-Cİ İLİN **DEKABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**



RUSİYA
**30 %**

GÜRCÜSTAN
**13 %**

TÜRKİYƏ
**12 %**

QAZAXISTAN
**12 %**

POLŞA
**5 %**




İRAN
**4 %**

ALMANİYA
**3 %**

UKRAYNA
**3 %**

SƏUDIYYƏ ƏRƏBISTANI
**2 %**

DİGƏR
**16 %**

5

# “2019 İXRACA DƏSTƏK” LAYİHƏSİ TƏQDİM OLUNMUŞDUR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində ixracatçı sahibkarlara "2019 İxraca dəstək" layihəsi təqdim olunmuşdur. Təqdimat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Gömrük Komitəsinin dəstəyi və "My Broker" gömrük təmsilçiliyinin birgə təşkilatçılığı ilə ixrac gömrük əməliyyatları və layihə üzrə maarifləndirici təlimdə reallaşdırılmışdır.

Tədbir çərçivəsində “2019 İxraca Dəstək” layihəsindən, layihənin yerli istehsalçılara verəcəyi üstünlüklərdən, 2019-cu il ərzində ixrac gömrük bəyannamələrinin tərtib olunması da daxil olmaqla, yerli istehsalçılarımıza ixrac üzrə gömrükləmə xidmətlərinin əksəriyyətinin ödənişsiz həyata keçirilməsindən, ixrac gömrük bəyannamələrinin doldurulması istiqamətində maarifləndirici təlimlərdən, habelə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların “My Broker” Gömrük Təmsilçiliyi şirkətinin ödənişsiz əsaslarla xidmətlərindən danışılmışdır.

Tədbirdə çıxış edən “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin meneceri Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkəmizdə ixracın asanlaşdırılması və şaxələndirilməsi istiqamətində həyata keçirdiyi islahatlar barədə geniş məlumat vermişdir. “My Broker” gömrük təmsilçiliyinin direktoru Rəşad Əliyev təlimin ixracatçılar üçün mühüm əhəmiyyət daşıdığını və onların xarici ticarət fəaliyyətlərlərini stimullaşdıracağını bildirmişdir.

Daha sonra çıxış edən ASAN Kommunal və funksional xidmətlərlə iş departamentinin müdiri Vüsal Rüstəmov təlimin önəmi vurğulamış və ixracatçılar üçün həyata keçirilən layihələr barədə məlumat vermişdir.





# POLŞADA "Azərbaycan Ticarət Evi" açılmışdır

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.

Cari ilin 6 dekabr tarixində Polşanın paytaxtı Varşavada "Azərbaycan Ticarət Evi" açılmışdır. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Polşa bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın Polşada satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunmuşdur. Daimi fəaliyyət göstərəcək sərgidə 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi məhsullar, o cümlədən spirtli içkilər, quru meyvələr, nar, fındıq, çay, mürəbbə, meyvə suları, mineral sular, kosmetik məhsullar və s. nümayiş olunur.

"Azərbaycan Ticarət Evi"nin fəaliyyətə başlaması ilə əlaqədar təşkil olunmuş tədbirdə İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Polşanın rəsmi şəxsləri və iş adamları iştirak etmişlər.

Tədbirdə çıxış edən İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Polşa arasında ticarət əlaqələrinin inkişaf etdiyini vurğulayaraq qeyd etmişdir ki, cari ilin ilk 9 ayı ərzində ölkələrimiz arasında ticarət dövriyyəsi 57% artmışdır. İndiyədək Polşa Azərbaycana 20 milyon ABŞ dollarından çox, Azərbaycan isə Polşaya 6,5 milyon ABŞ dolları dəyərində investisiya yatırmışdır. Hazırda Azərbycanda xidmət, sənaye və ticarət sahələrində 21 Polşa şirkəti fəaliyyət göstərir.

Sonra tədbir iştirakçıları "Azərbaycan Ticarət Evi" və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olmuşlar.

Tədbir çərçivəsində "Azərbaycan Ticarət Evi" ilə Polşanın "STX ONE" şirkəti arasında fındıq və nar şirəsi konsentratının satışına dair Anlaşma Memorandumu imzalanmışdır.








## 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** İXRAC TƏŞVİQİ ÖDƏNİLƏN ƏSAS MƏHSULLAR **(min manatla)**

2018 İXRAC İCMALI DEKABR

2018-ci ilin yanvar-sentyabr aylarında sahibkarlara 3,7 milyon manat ixrac təşviqi ödənilmişdir. Ümumilkdə isə 2017-ci ildə və 2018-ci ilin 9 ayında ödənilən ixrac təşviqinin dəyəri 6,8 milyon manat təşkil etmişdir.



**Üzüm şərabları və digər spirtli içkilər**

**738**



**Təzə xurma və təzə nar**

**981**



**Pambıq ipliyindən hazırlanan məmulatlar**

**361**



**Fındıq ləpəsi**

**814**



**Konserv məhsulları, şirələr, mürəbbələr, souslar**

**776**



Mənbə: Azpromo

6

# "XARİCİ TİCARƏT İŞTİRAKÇILARININ FORUMU: “"YAŞIL DƏHLİZ" BURAXILIŞ SİSTEMİNİN TƏTBİQİ" ADLI TƏDBİR KEÇİRİLMİŞDİR

Cari ilin dekabr ayının 24-də "Bulvar Otel Bakı"da Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə "Xarici ticarət iştirakçılarının forumu: "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqi" adlı tədbir keçirilmişdir. Tədbirin məqsədi Azərbaycan Prezidenti İlham Əliyevin "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında 21 dekabr 2018-ci il tarixli fərmanından irəli gələn məsələlərin icra mexanizmilə bağlı sahibkarları məlumatlandırmaq olmuşdur.

Forumda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, kənd təsərrüfatı naziri İnam Kərimov, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, vergilər nazirinin müavini Mətin Eynullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri və 500-ə qədər sahibkar iştirak etmişdir.

Tədbirdə Prezident İlham Əliyevin dövlət idarəçiliyinin dərinləşdirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafı və digər sahələrdə həyata keçirdiyi islahatlardan bəhs edən Səfər Mehdiyev, islahatların səmərəliliyinin artırılması, beynəlxalq ticarətin sürətli və asan şəkildə həyata keçirilməsi, şəffaflığın, vətəndaş məmnuniyyətinin tam təmin olunması məqsədilə gömrük sistemində bir sıra yeniliklərin reallaşdırıldığını bildirib və "Yaşıl dəhliz" buraxılış sistemilə bağlı dövlət başçısının son fərmanını xarici ticarət iştirakçılarının fəaliyyətinə mühüm töhfə, yeni il hədiyyəsi kimi səciyyələndirmişdir.

"Yaşıl dəhliz" buraxılış sisteminin artıq pilot variantda həyata keçirildiyini, 2019-cu il fevralın 1-dən isə ixracda tam tətbiq olunacağını vurğulayan Komitə sədrinin sözlərinə görə, nəticədə sahibkarlar gömrük orqanına getmədən, gömrük əməkdaşı ilə təmasda olmadan qısa idxal bəyannaməsini əvvəlcədən elektron qaydada gömrük orqanına göndərməklə, malların yükləmə və gömrük rəsmiləşdirməsi proseslərini icra edə, nəqliyyat vasitələrini gömrük təminatının tanınma nişanları, plomblarla təmin edərək istənilən gömrük-sərhəd buraxılış məntəqəsindən ixrac əməliyyatını həyata keçirə bilərlər.

Qeyd olunub ki, bu qayda vətəndaş-məmur təmasını minimuma endirməklə şəffaflığın tam təmin olunmasına şərait yaradacaq. Eyni zamanda, fevral ayının 1-dən idxal əməliyyatları ilə məşğul olan sahibkarlar da bu sistemin faydalarından yararlanacaqlar.

Sonra Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev "Yaşıl dəhliz" buraxiliş sisteminin tətbiqinə dair təqdimatla çıxış etmişdir.

Daha sonra kənd təsərrüfatı naziri İnam Kərimov çıxış edərək Prezident İlham Əliyevin imzaladığı fərmanın iqtisadiyyatın, qeyri-neft sektorunun inkişafına, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, ölkənin ixrac potensialının gücləndirilməsinə münbit şərait yaradacağını bildirib və buna görə dövlət başçısına təşəkkürünü ifadə etmişdir.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Prezident İlham Əliyevin "Yaşıl dəhliz" buraxılış sistemilə bağlı imzaladığı son fərmanı ölkədə həyata keçirilən islahatların növbəti mərhələsi kimi dəyərləndirmiş və bildirmişdir ki, bu fərmanda nəzərdə tutulan məsələlərin icrası idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsinin asanlaşdırılmasına, şəffaflığın təmin olunmasına şərait yaradacaqdır. Agentliyin rəhbəri vurğulayıb ki, yeni qayda qida məhsullarının idxal-ixrac prosesi zamanı da sahibkarların fəaliyyətinə müsbət təsir göstərəcəkdir.

Vergilər nazirinin müavini Mətin Eynullayev “Yaşıl dəhliz” buraxılış sistemi ilə bağlı yeni qaydanın tətbiqinin şəffaflığın təmin olunması üçün bir nümunə olduğunu, xarici ticarət iştirakçılarının bir sıra üstünlüklər əldə etməsinə şərait yaratdığını vurğulamışdır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirmişdir ki, ötən illər ərzində Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş strateji xəttin ardıcıl reallaşması, bu məqsədlə həyata keçirilən sistemli islahatlar nəticəsində sahibkarlara yönəlik dövlət xidmətlərinin keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, “Caspian European Club”un icraçı direktoru Telman Əliyev, Azərbaycandakı Amerika Ticarət Palatasının icraçı direktoru Natəvan Məmmədova çıxış edərək sözügedən Fərmanın sahibkarlıq fəaliyyətinin stimulaşdırılması, ölkənin ixrac potensialının gücləndirilməsi və şəffaflığın təmin olunmasında mühüm rol oynayacağını vurğulamışlar.

Tədbirin sonunda sahibkarları maraqlandıran suallar cavablandırılmışdır.





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ**
**CENTER FOR ANALYSIS OF ECONOMIC REFORMS AND COMMUNICATION**
**ЦЕНТР АНАЛИЗА ЭКОНОМИЧЕСКИХ РЕФОРМ И КОММУНИКАЦИЙ**


Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


